**2019-cu il üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri üzrə görülmüş tədbirlər barədə məlumat**

"Dövlət qulluğu haqqında" və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunlarına, "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"yə, habelə "Azərbaycan Respublikasının miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları"na uyğun olaraq, 2019-cu il ərzində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzarətdə saxlanılmışdır.

Hər il olduğu kimi, 2019-cu il ərzində də korrupsiyaya qarşı mübarizəyə dair tədbirlərin davamlılığının təmin edilməsi, o cümlədən miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış qaydalarına diqqətin artırılması məqsədi ilə "Miqrasiya orqanları işçilərinin etik davranış qaydaları", "Miqrasiya orqanlarının fəaliyyətində şəffaflığın qorunması, korrupsiyanın və maraqların toqquşmasının qarşısının alınması" və "Etik davranış və korrupsiyaya qarşı mübarizə texnikası" mövzusunda miqrasiya orqanı əməkdaşları üçün müvafiq təlim və treninqlər keçirilmişdir.

Keçirilmiş təlimlər zamanı miqrasiya orqanı əməkdaşı tərəfindən əcnəbilərə layiqli xidmət, vətəndaş məmnuniyyəti, şəffaflıq, korrupsiyanın yolverilməzliyi kimi tələbləri daim rəhbər tutulmaqla etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyi vurğulanmış və digər etik davranış qaydaları ətrafında geniş müzakirələr aparılmışdır.

Eyni zamanda, miqrasiya orqanı əməkdaşlarının qulluq etikasının normalarına riayət etmələri vəziyyəti müntəzəm olaraq təhlil edilmiş və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülmüşdür. Belə ki, bu istiqamətdə ötən il ərzində "Azərbaycan Respublikasının miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları"nda göstərilən vəzifələrin icrası zamanı etik davranış və intizam qaydalarını pozmuş 2 əməkdaşa şifahi xəbərdarlıq, 1 əməkdaşa irad tutma, 4 əməkdaşa şiddətli töhmət, 8 əməkdaşa töhmət, 2 əməkdaşa "tutduğu vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq" tənbehi tədbirinin tətbiq edilmişdir.